# ANTROPONİMLƏRİN TƏDQİQİ TARİXİ

**Fil.f.d., dos. Yeganə Müseyib qızı Hacıyeva**
**Azərbaycan Dillər Universiteti**

**XÜLASƏ:**

Onomastika dilçiliyin bir şöbəsi olub, xüsusi adların toplusudur. A.Qurbanov yazır ki, dildə mövcud olan xüsusi adların cəmi onomastikanı təşkil edir. Deməli, onomastika hər hansı bir dildəki xüsusi adların məcmusudur. Məsələn, Azərbaycan onomastikası, özbək onomastikası, türkmən onomastikası və s.

Dildə mövcud olan hər şeyin adı vardır. Adsız cəmiyyətdə nə canlı, nə də cansız varlıqlar mövcud deyildir. Dilin leksik tərkibindəki xüsusi adların cəmi onomastika, ondan bəhs edən dilçilik şöbəsi isə onomalogiya adlanır.

Onomastikanın bir bölməsi də olan antroponimlər şəxs adlarını öyrənir. Dilçilikdə antroponimləri öyrənən onomalogiya yarımşöbəsi antroponimiya adlanır. Antroponimlər insan cəmiyyəti yarandığı gündən bir qədər sonra dilin yaranması, yəni üsniyyətlə bağlı olaraq meydana gəlmişdir. Bəşəriyyətin yaranması və inkişafı ilə əlaqədar olaraq antroponimsiz keçinmək mümkün olmamışdır. Şifahi və yazılı mənbələrimizdə mövcud olan xüsusi adlar həmin fikri təsdiq edir.

Şəxs adları insanları bir-birindən ayırmaq, şəxsi bildirmək üçün işlədilən sözlərdir. İnsan adları kollektivin, cəmiyyətin tələbinə görə yaranmışdır. Onların meydana çıxması cəmiyyətin ünsiyyət və ayrı – ayrı fərdləri bir-birindən fərqləndirmək ehtiyacından doğmuşdur. Adların yaranmasını öyrənmək həmin xalqın tarixini öyrənməyə bərabərdir.

Antroponimlərin öyrənilməsi, tədqiq olunması həmişə dilçi alimlərin diqqət mərkəzində olmuş, bu barədə məqalələr, elmi əsərlər yazılmışdır.

Türk mənşəli antroponimlərin tədqiqi bir sıra rus alimlərinin, Avropalı türkoloqların diqqət mərkəzində olmuşdur.

Türkologiyada türk mənşəli antroponimlərinin tədqiqi tarixi Mahmud Kaşğarinin "Divani lüğət-it türk" (XI əsr) əsəri ilə başlayır.

**Açar sözlər:** onomastika, antroponim, dilçilik, ləqəb

**Summary**

**History of the investigation of anthroponyms**

The specific names in the lexical structure of the language are called onomastics, and the linguistic department that describes it is called onomalogy. Study  of anthroponyms have always been in the center of attention of linguists, articles and scientific works have been written about it. In general, the

systematic study of anthroponyms in the history of linguistics began after the 60's of century.

Onomastika dilçiliyin bir şöbəsi olub, xüsusi adların toplusudur. A.Qurbanov yazır ki, dildə mövcud olan xüsusi adların cəmi onomastikanı təşkil edir. Deməli, onomastika hər hansı bir dildəki xüsusi adların məcmusudur. Məsələn, Azərbaycan onomastikası, özbək onomastikası, türkmən onomastikası və s.

Dildə mövcud olan hər şeyin adı vardır. Adsız cəmiyyətdə nə canlı, nə də cansız varlıqlar mövcud deyildir. Dilin leksik tərkibindəki xüsusi adların cəmi onomastika, ondan bəhs edən dilçilik şöbəsi isə onomalogiya adlanır.

Onomastikanın bir bölməsi də olan antroponimlər şəxs adlarını öyrənir. Dilçilikdə antroponimləri öyrənən onomalogiya yarımşöbəsi antroponimiya adlanır. Antroponimlər insan cəmiyyəti yarandığı gündən bir qədər sonra dilin yaranması, yəni üsniyyətlə bağlı olaraq meydana gəlmişdir. Bəşəriyyətin yaranması və inkişafı ilə əlaqədar olaraq antroponimsiz keçinmək mümkün olmamışdır. Şifahi və yazılı mənbələrimizdə mövcud olan xüsusi adlar həmin fikri təsdiq edir.

Şəxs adları insanları bir-birindən ayırmaq, şəxsi bildirmək üçün işlədilən sözlərdir. İnsan adları kollektivin, cəmiyyətin tələbinə görə yaranmışdır. Onların meydana çıxması cəmiyyətin ünsiyyət və ayrı – ayrı fərdləri bir-birindən fərqləndirmək ehtiyacından doğmuşdur. Adların yaranmasını öyrənmək həmin xalqın tarixini öyrənməyə bərabərdir.

Antroponimlərin öyrənilməsi, tədqiq olunması həmişə dilçi alimlərin diqqət mərkəzində olmuş, bu barədə məqalələr, elmi əsərlər yazılmışdır.

Türk mənşəli antroponimlərin tədqiqi bir sıra rus alimlərinin, Avropalı türkoloqların diqqət mərkəzində olmuşdur.

Türkologiyada türk mənşəli antroponimlərinin tədqiqi tarixi Mahmud Kaşğarinin "Divani lüğət-it türk" (XI əsr) əsəri ilə başlayır.

**Key words:** onomastics, anthroponyms, linguistics, nickname

## Об истории изучения антропонимов

**Резюме:**

Ономастика это совокупность собственных имен в лексическом составе языка, а ономалогия это раздел языкознания, которое изучает эти лексические единицы. Изучение антропонимов всегда было в центре внимания ученых, которые опубликовали статьи и научные работы по этой теме. В совокупности в истории языкознания антропонимы исследуются с 60-х годов прошлого века.

Ономастика является отделом лингвистики и представляет собой набор специальных имен. А. Гурбанов пишет, что только специальные имена в языке являются ономастикой. Итак, ономастика - это подборка специальных имен на любом языке. Например, азербайджанская ономастика, узбекская ономастика, туркменская ономастика и так далее.

У всего на языке есть имя. В специальном обществе нет ни живых, ни безжизненных существ. Конкретные имена в лексической структуре языка называются ономастикой, а лингвистический отдел, говорящий об этом, называется ономологией.

Антропонимы, которые также являются частью ономастики, изучают имена людей. Отдел ономалогии, изучающий антропонимы в лингвистике, называется антропонимами. Антропонимы возникли вскоре после формирования человеческого общества, в связи с появлением языка, то есть природы. Из-за происхождения и развития человечества невозможно было уехать без антропонима. Конкретные имена, которые мы имеем в наших устных и письменных источниках, подтверждают это.

Имена людей - это слова, используемые для разделения людей, для выражения их личности. Человеческие имена были созданы по просьбе коллектива и общества. Их возникновение возникло из-за необходимости того, чтобы общество различало общение и отдельных людей. Изучение происхождения имен похоже на изучение истории этой нации.

Изучение и изучение антропонимов всегда было в центре внимания лингвистов, и статьи и научные статьи были написаны об этом.

Изучение антропонимов турецкого происхождения было в центре внимания ряда российских ученых и европейских тюркологов.

История антропонимов тюркского происхождения в тюркологии начинается с работы Махмуда Кашгара « Divani –luqat- It Turk» (XI век).

**Ключевые слова:** ономастика, антропоника, лингвистика, кличка

**ANNOTASİYA**:

Dildə mövcud olan xüsusi adların cəmi onomastikanı təşkil edir. Deməli, onomastika hər hansı bir dildəki xüsusi adların məcmusudur. Məsələn, Azərbaycan onomastikası, özbək onomastikası, türkmən onomastikası və s. Dildə mövcud olan hər şeyin adı vardır. Adsız cəmiyyətdə nə canlı, nə də cansız varlıqlar mövcud deyildir. Dilin leksik tərkibindəki xüsusi adların cəmi onomastika, ondan bəhs edən dilçilik şöbəsi isə onomalogiya adlanır.

Onomastikanın bir bölməsi də olan antroponimlər şəxs adlarını öyrənir. Dilçilikdə antroponimləri öyrənən onomalogiya yarımşöbəsi antroponimiya adlanır. Antroponimlər insan cəmiyyəti yarandığı gündən bir qədər sonra dilin yaranması, yəni üsniyyətlə bağlı olaraq meydana gəlmişdir. Bəşəriyyətin yaranması və inkişafı ilə əlaqədar olaraq antroponimsiz keçinmək mümkün

olmamışdır. Şifahi və yazılı mənbələrimizdə mövcud olan xüsusi adlar həmin fikri təsdiq edir.

Şəxs adları insanları bir-birindən ayırmaq, şəxsi bildirmək üçün işlədilən sözlərdir. İnsan adları kollektivin, cəmiyyətin tələbinə görə yaranmışdır. Onların meydana çıxması cəmiyyətin ünsiyyət və ayrı – ayrı fərdləri bir-birindən fərqləndirmək ehtiyacından doğmuşdur. Adların yaranmasını öyrənmək həmin xalqın tarixini öyrənməyə bərabərdir.

## GİRİŞ:

Onomastika yunan sözü olub, Azərbaycan dilinə tərcümədə “advermə elmi” kimi anlaşılır. Lakin müasir dövrdə onu xüsusi adlar haqqınmda elm tərzində şərh etmək daha düzgündür. Onomastika dilçiliyin bir şöbəsi olub, xüsusi adların toplusudur.

A.Qurbanov yazır ki, dildə mövcud olan xüsusi adların cəmi onomastikanı təşkil edir. Deməli, onomastika hər hansı bir dildəki xüsusi adların məcmusudur. Məsələn, Azərbaycan onomastikası, özbək onomastikası, türkmən onomastikası və s.

Dildə mövcud olan hər şeyin adı vardır. Adsız cəmiyyətdə nə canlı, nə də cansız varlıqlar mövcud deyildir. Dilin leksik tərkibindəki xüsusi adların cəmi onomastika, ondan bəhs edən dilçilik şöbəsi isə onomalogiya adlanır.

Onomastikanın bir bölməsi də olan antroponimlər şəxs adlarını öyrənir. Dilçilikdə antroponimləri öyrənən onomalogiya yarımşöbəsi antroponimiya adlanır. Antroponimlər insan cəmiyyəti yarandığı gündən bir qədər sonra dilin yaranması, yəni üsniyyətlə bağlı olaraq meydana gəlmişdir. Bəşəriyyətin yaranması və inkişafı ilə əlaqədar olaraq antroponimsiz keçinmək mümkün olmamışdır. Şifahi və yazılı mənbələrimizdə mövcud olan xüsusi adlar həmin fikri təsdiq edir.

Şəxs adları insanları bir-birindən ayırmaq, şəxsi bildirmək üçün işlədilən sözlərdir. İnsan adları kollektivin, cəmiyyətin tələbinə görə yaranmışdır. Onların meydana çıxması cəmiyyətin ünsiyyət və ayrı – ayrı fərdləri bir-birindən fərqləndirmək ehtiyacından doğmuşdur. Adların yaranmasını öyrənmək həmin xalqın tarixini öyrənməyə bərabərdir.

Antroponimlərin öyrənilməsi, tədqiq olunması həmişə dilçi alimlərin diqqət mərkəzində olmuş, bu barədə məqalələr, elmi əsərlər yazılmışdır.

Türk mənşəli antroponimlərin tədqiqi bir sıra rus alimlərinin, Avropalı türkoloqların diqqət mərkəzində olmuşdur.

Türkologiyada türk mənşəli antroponimlərinin tədqiqi tarixi Mahmud Kaşğarinin “Divani lüğət-it türk” (XI əsr) əsəri ilə başlayır.

Ə.Tanrıverdi “Qədim türk mənbələrində yaşayan şəxs adları” kitabında işlənən adların izahını vermişdir. Kılıç xan. Bu atalar sözündə də işlənmişdir;

koş kılıç kinka sığmas – qoşa qılınc qana sığmaz... Bununla xaqaniyyə xanlarına ad verilərək “Kılıç xan” deyilir ki, düşündüyü, qurduğu işlərdə qılınc kimi kəsib atan xaqan deməkdir; Köl Bigə - Uyğur xanına “Köl Bigə xan” ləqəbi verilir, çünki “kamalı göl kimi, göl qədər” deməkdir. Burada ağılın çoxluğunu göstərmək üçün o, gölə bənzədilmişdir. Tonqa – bəbir. Qaplan cinsindən bir heyvandır. Fili öldürür... Uşaqlara buna bənzər adlar çox qoulur. Əfrasiyabın əsl türk adı “Tonqa Alp Ər” dir, “Bəbir kimi” qüvvətli, igid adam deməkdir. Bəktur – kişi adıdır. Əsli bəktur-bərk dayan formasındadır. Onlarla xüsusi adların təhlilini verməsi onomastik vahidlərin qədim tarixə malik olduğunu bir daha təsdiq edir.

Rus şərqşünası V.A.Qordlovski ilk dəfə olaraq türk xalqlarının antroponimlərini sistemli şəkildə tədqiq etmişdir. O, 50 ildən artıq elmi yaradıcılıqla məşğul olmuş, türkdilli xaqların tarixinin, dilinin öyrənilməsində əvəzsiz işlər görmüşdür. Onun 1910-cu ildə yazdığı “Uşağın doğulması və onun tərbiyələndirilməsi” məqaləsi 24 bənddən ibarətdir. Məqalənin 11-ci bəndi tam mənası ilə antroponimikaya aiddir. Bununla yanaşı, o, əsərdə uşağın doğulması, adlandırılması və tərbiyəsi ilə əlaqədar olan adət - ənənələrə dair maraqlı fikirlər söyləmişdir. Gələcək körpəyə ad seçilməsi ilə bağlı əsərdə belə bir fikir vardır: “Əgər kiminsə əvvəlki uşaqları vəfat edirsə, onda dünyaya gələn növbəti körpəni oğlan uşağı olsa, Dursun, qız uşağı olmuş olsa, Yetər adlandırırlar”. 1911-ci ildə müəllifin bu mülahizələrinə qarşı N.A.Samoylovic öz münasibətini bildirir, bu da V.A.Qordlevski tərəfindən ikinci bir əsərin “Osmanlılarda şəxs adlarına dair” yazılmasına səbəb olur. Əsərin əvvəlində V.A.Qordlevski müasir türk antroponimiyasında qədim türk şəxs adlarının mövqeyini izah edir. Müılif Toğrulbəy, Tay, Ay, Gündüz, Qaraquş və s. kimi şəxs adlarının işlədilməsinin qədim totemist baxışlar ilə əlaqədar olduğunu göstərir.

V.A.Qordlevski xristianlarda işlədilən təqvim adları ilə müsəlman təqvimini müqayisə edərək göstərir ki, xristianlarda müqəddəs şəxsin doğulduğu günə müvafiq gələn gündə anadan olmuş körpə həmin şəxsin adı ilə adlandırılırdı, müsəlmanlarda isə müqəddəs ay və gecələrdə doğulmuş uşaqları müvafiq gün və ay adları ilə adlandırırlar. Mövlud, Rəcəb, Şaban, Ramazan, Məhərrəm və s. bu tipli adlardır.

V.A.Qordlevski həmin əsərdə ləqəbləri aşağıdakı kimi qruplaşdırır:

I. Mənşəyinə görə: a) milliyyətbildirən ləqəblər: Gürcü Əhməd, Ərəbzadə, Tatar və s. b) ərazi bildirən ləqəblər.

II. Əlamətlərə görə: a) şəxsin saç və gözlərinin rənginə görə verilən ləqəblər: Sarı İsmayıl, Qaragöz Məhəmməd və s.; b) şəxsin görünüşü və yerişinə görə: İynəbəy, Sərcəbəy, Apış Əhməd və s.; c) şəxsin cismani nöqsanlarına görə: Altıbarmaq, Topaloğlu, Kosa Əlipaşa və s.

III. Şəxsin xarakterik məşğuliyyət və meylinə görə verilən ləqəblər: Dəli Məhəmməd, Qoç Məhəmməd və s.

IV. Şəxsin məşğuliyyət və yaxud vəzifəsinə görə ləqəblər: Fateh Məhəmməd, Müəllim Nağı və s.

V. İctimai vəziyyətinə görə: Kürdoğlu, Civizadə və s.

VI. Tarixi ləqəblər: Minpara Əhmədpaşa, İyirmi səkkiz Məhəmməd Çələbi və s.

Müəllifin "Osmanlılarda xüsusi adlar onomastikası" əsərində türk dilində işlədilən şəxs adları, adların mənşəyi, ləqəblər və s. haqqında danışılır, şəxs adlarının əmələ gəlməsi və inkişaf tarixini iki dövrlə əlaqələndirir:

a) Qədim dövrlərdən başlayaraq islam dininin, müsəlmanlığının meydana gəlməsinə qədər olan dövrdə mövcud olan adlar;
b) İslam dininin yayılmasından sonra yaranan adlar.

İslamaqədərki dövrdə uşaqları pis qüvvələrdən, bədbəxt hadisələrdən, vaxtsız ölümlərdən qorumaq üçün onlara Dursun, Yaşar, Satılmış, Durmuş və s. adları verilirdi. İslam dininin yayılması ilə əlaqədar ad sistemində də böyük dəyişikliklər baş vermiş, peyğəmbərlərin, imamların, müqəddəs şəxslərin adları geniş işlənmə dairəsi qazanmışdır. Müəllif bu məqaləsində şəxs adları ilə yanaşı ləqəblərin də türk xalqlarında geniş yayıldığını qeyd edərək, ləqəblərin yaranma yollarını ümumiləşdirmişdir.

A.N.Samoylovicin 1914-cü ildə çap etdirdiyi "Türk tayfalarında ad qoyulması" əsəri antroponimləri öyrənmək üçün xüsusi önəm kəsb edir. Burada A.N.Samoylovic V.A.Qordlevskinin fikrini təsdiq etmiş, valideynlərin övladlarını vaxtsız ölümlərdən qorumaq üçün onlara verdikləri Dursun və Yetər adlarının leksik semantikasından danışılır.

L.Razoni türk antroponimlərinin təhlili ilə məşğul olan Qərbli alimlərdəndir. O, "Türk xalqlarında qadın adları", "Türk şəxs adlarında say məzmunlu vahidlər", "Türk antroponimləri bir neçə ad kateqoriyasında" və s. əsərlərinin müəllifidir. A.Nikanov L. Razoninin əsərlərini təhlil etmiş, həmçinin onun əsas müddəalarını rus dilinə tərcümə etmişdir.

A.V.Superanskaya xüsusi adlara, o cümlədən, antroponimlərə aid bir neçə əsərin müəllifidir. "Xüsusi ismin ümumi nəzəriyyəsi" əsərində o, onomastikanın, eləcə də onun əsas tərkib hissəsini təşkil edən antroponimlərin nəzəri problemləri, məsələnin tarixi, ad və cəmiyyət, xüsusi adların semantikası və dildə mövqeyi və s. kimi məsələləri işıqlandırmışdır. Antroponimlərdən danışarkən müəllif qeyd edir ki, baxmayaraq ki, antroponimlər insanların adlandırılması ilə əlaqədardır və həm də ancaq insan – bu yeganə obyekt, mədəniyyət tarixi, insan psixologiyasının xüsusiyyətləri, müxtəlif ənənələr və bir çox başqa məsələlərlə bağlı olan ad kateqoriyasının həddindən artıq mürəkkəb spektrini almağa imkan verir. Müəllif 1920-1930-cu illərdə yeni ad yaradıcılığı prosesində həmin dövrün hadisələrinin – inqilabın, ideologiyanın mühüm rol oynadığını göstərir.

Qədim türk adlarının tədqiqi sahəsində məşhur türkoloq V.Vradlovun da müəyyən qədər xidmətləri olmuşdur. Müəllif “Uyğur xanlarının ad və titulları” adlı tarixi əsərində qədim uyğur xanlarının daşıdıqları adları, titulları tədqiq etmiş, qədim Çin heroqlifləri ilə yazılmış şəxs adlarını, titulları yenidən bərpa edərək oxumuş və uyğur xanlarının şəcərəsini tərtib etmişdir. Bu şəcərəyə görə uyğur xanlarının birincisi Peylo, sonuncusu (VII) Qutluq olmuşdur.

Türkologiyada şəxs adlarının araşdırılmasında V.A.Nikanovun xüsusi xidməti olmuşdur. Onun “Türkdilli xalqlarda şəxs adları” belə əsərlərindən biridir. Müəllif bu əsərdə doqquz türkdilli respublikanın (Azərbaycan, Altay, Başqırdıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, tatar, qumuq və noqay) ayrı-ayrı rayonları üzrə Vətəndaşlıq vəziyyəti Aktları qeyd bürolarında antroponimik vahidlərin araşdırılması ilə məşğul olmuş və 200 minə qədər yeni doğulan uşağın şəxs adını qeydə almışdır. Bu əsərdə həmçinin rus antroponimikası ilə türkdilli xalqların antroponimikaları müqayisə edilir və rus dilinə nisbətən türkdilli xalqlarda şəxs adlarının kəmiyyətcə dəfələrlə üstün olduğunu göstərilir.

Müəllifin “Türkdilli xalqlarda şəxs adlarının cinsə görə ayrılması”, “Tatar və başqırd antroponimikasında aktual proseslər” və s. əsərləri bilavasitə türkdilli xalqların şəxs adlarının tədqiqinə həsr edilmiş əsərləridir.

Görkəmli sovet türkoloqu N.A.Baskakov 1960-cı illərdə rus dilində işlədilən türk mənşəli antroponimik vahidlərin (soyadların) tədqiqi ilə məşğul olmuş və bu barədə müxtəlif vaxtlarda məqalələr çap etdirmişdir. Bütün bu tədqiqatların nəticəsi kimi 1979-cu ildə N.A.Baskakovun “Türk mənşəli rus familiyaları” adlı monoqrafiyası çapdan buraxılır. Monoqrafiyada 300 rus soyadının filoloji təhlili verilir. Monoqrafiyada araşdırılan soyadlar ancaq dilçilik baxımından deyil, onların formalaşmasının tarixi, leksik-semantik inkişaf prosesi geniş surətdə izah olunur. Türk mənşəli rus soyadlarının yeni mühitdə formalaşması problemi əsasən Qızıl Orda və həmçinin türk qəbilə və dövlət ittifaqlarının adları ilə bağlıdır. Müəllif soyadları 4 qrupda göstərmişdir:

1. Mənsub olduğu məkana görə formalaşan soyadlar;
2. Titul rütbəsinə görə formalaşan soyadlar;
3. Şəxs adlarına görə formalaşan soyadlar;
4. Ləqəblərə görə formalaşan soyadlar.

Türk dil Qurumu yaradıcılarından olan Bəsim Atalay qədim türk antroponimik vahidlərini toplayıb nəşr edirən alimlərdəndir. Müəllifin 1921 və 1935-ci illərdə İstanbulda çap etdirdiyi “Türk böyükləri və ya türk adları” kitabında 600-ə qədər şəxs adı haqqında məlumat verilmişdir. Lüğətdə verilmiş antroponimik vahidlər M.Kaşğarinin lüğətindən, “Kitabi – Dədə Qorqud” və s. tarixi abidələrdən götürülmüşdür.

N.A.Baskakov 1979-cu ildə nəşr etdirdiyi “Türk mənşəli rus soyadları” adlı əsərində türk mənşəli rus soyadlarını 4 qrupda vermişdir:

1. Anadan olduğu yerlə bağlı;
2. xüsusi şəxs adı ilə bağlı;
3. titulla bağlı;
4. ləqəblərlə bağlı yaranan soyadlar.

Əsərdə türk mənşəli Balaşov, Daşkov, Taptıkov, Laçinov və s. soyadların geniş etimoloji izahı verilmişdir. Əsərdə bəzi soyadların izahı düzgün verilməmişdir. Məsələn, Şerapov soyadı şərab və şərəf sözləri ilə əlaqələndirilir, əslində isə bu soyad şərəf sözü ilə əlaqədar yaranmışdır.

Azərbaycan antroponimlərinin tədqiqi ilə bağlı ilk qeydlərə A.Bakıxanovun əsərlərində rast gəlirik. A.Bakıxanovun "Gülüstani – İrəm" əsərində Şirvanşahların ləqəbləri, nəsəbləri, görkəmli şəxsiyyətlərin tərcümeyi – halları, onların təxəllüsləri, titulları haqqında məlumat verilmişdir. Müəllifin 1843-cü ildə yazdığı "Adlar və titullar" adlı əsəri antroponimlərin öyrənilməsi üçün qiymətli mənbədir. Əsərdə xan, sultan, məlik, bəy, ağa, minbaşı, yüzbaşı, naib, qalabəyi, usmi, qazı, mülkədar, vəkil, sərdar, darğa, mirab, mizandar, kovğa, kənduxa, nökər, qul, bəyzadə, eşikağası, tərxan və s. titulların leksik mənşəyi izah edilir.

Ümumilikdə, dilçilik tarixində antroponimlərin sistemli şəkildə öyrənilməsinə keçən əsrin 60-cı illərindən sonra başlanılmışdır. T.Hacıyev, A.Qurbanov, A.Axundov, Z.Verdiyeva, Ə.Tanrıverdiyev, Y.Seyidov, H.Əliyev, M.Adilov, H.Həsənov və başqaları elmi araşdırmalar aparmış, elmi əsərləri ilə antroponimikanın öyrənilməsində xüsusi xidmətləri olmuşdur.

M.N.Çobanov "Azərbaycan antroponimiyasının əsasları" adlı kitabında adların əsası və semantik qrupları, müştərək adlar, adların abbreviasiyası, mənşəyi, soyad, təxəllüs, ləqəb və onların quruluşu, adqoyma ənənələri və s. bəhs olunmuşdur.

Ş.Sədiyevin 1969-cu ildə çap etdirdiyi "Adlar necə yaranmışdır?" kitabçasında insan adlarının meydana çıxması, inkişafı, cəmiyyətdə əhəmiyyəti, şəxs adlarının keçmiş və müasir vəziyyəti kimi bir sıra kişi və qadın adlarının mənasını izah etməyə nail olmuşdur. Kitabda şəxs adları ilə yanaşı soyad, təxəllüs, titul, ləqəb ata adları  və s. antroponimik kateqoriyalar da şərh olunmuşdur.

H.Həsənovun "Söz və ad" kitabında söz və adların yaranmasından, adların taleyindən, onların təsnifi, yazılışı və bədii əsərlərdə işlədilməsi məsələlərindən danışılır.

XX əsrdən başlayaraq şəxs adları lüğətlərinin hazırlanması sahəsində xeyli iş görülmüşdür. Şəxs adları ilə əlaqədar xüsusi lüğətin hazırlanması M.Çobanovun adı ilə bağlıdır. Onun 1981-ci ildə nəşr olunan "Azərbaycan şəxs adları" lüğətində 2000-ə qədər adın siyahısı verilmişdir. 1985-ci ildə B.Abdullayevin "Azərbaycan şəxs adlarının izahlı lüğəti" çap edilmiş, lüğətdə təminən minə qədər şəxs adının izahı verilmişdir.

O.Mirzəyevin 1986-cı ildə çap olunmuş “Adlarımız” kitabı üç hissədən ibarətdir, burada adların semantikası verilmiş, kitabın sonunda isə 1380 adın siyahısı verilmişdir.

M.Şirəliyev, B.Abdullayev, Ş.Sədiyevin 1987-ci ildə “Azərbaycan şəxs adları” kitabı çapdan çıxmışdır. Kitabça iki hissədən ibarətdir. Birinci hissədə azərbaycanca-rusca adlar lüğəti verilmişdir. İkinci hissədə adların mənşəyi və izahı verilir. Kitabda 1400 adın siyahısı verilmiş, 1388 adın isə leksik mənası izah edilmişdir. Bu kitabın əsas məqsədi valideynlərə ad seçərkən, müvafiq idarə işçilərinə isə adların düzgün yazılış qaydalarında kömək etməkdən ibarət olmuşdur.

1999-cu ildə Ə.Tanrıverdinin “Kitabi-Dədə Qorqudda şəxs adları” kitabı nəşr olunmuşdur. Kitabda dastanda işlənən şəxs adları və onların mənşəyi hərtərəfli sürətdə tədqiq olunmuşdur.

Azərbaycan dilinin onomastikasının hərtərəfli öyrənilməsində A.Qurbanovun misilsiz xidmətləri olmuşdur. Müəllifin iki clddə nəşr olunmuş “Azərbaycan onomalogiyasının əsasları” monoqrafiyasında onomastik vahidlər sistemli şəkildə tədqiq edilmişdir. Monoqrafiyanın ikinci cildinin ikinci fəsli “Azərbaycan antroponimləri” adlanır. Burada antroponimik kateqoriyalar və onların təsnifi, antroponimlərin növləri və s. ətraflı şərh edilmişdir.

M.Adilovun A.Paşayevlə birlikdə nəşr etdirdiyi “Azərbaycan onomastikası” kitabının birinci bölməsi antroponimika adlanır. Burada antroponimik kateqoriyalar iki qrupda göstərilir. 1. əsas ad kateqoriyaları; 2. Köməkçi ad kateqoriyaları. Əsas ad kateqoriyasına əsl şəxs adı, ata adı, soyad, köməkçi ad kateqoriyasına təxəllüs, titul, ləqəb, fəxri adlar aid edilir.

Antroponimlərin tədqiqində klassik ədəbiyyat nümunələrinin böyük rolu vardır. Bu sahədə bir çox tədqiqat işləri aparılmışdır. A.Paşayev “Nizami Gəncəvinin poetik antroponimiyası”, M.Adilov “Füzuli qəzəllərində xüsusi adların üslubi poetik xüsusiyyətləri”, E.Quliyeva “Rəşidəddinin “Oğuznamə” əsərində antroponimlər” və s. kimi tədqiqatlar klassik poeziyanın üslubi məqamlarını açılmaq məqsədi daşıyır.

**AKTUALLIQ:**

Onomastikanın bir bölməsi də olan antroponimlər şəxs adlarını öyrənir. Dilçilikdə antroponimləri öyrənən onomalogiya yarımşöbəsi antroponimiya adlanır. Antroponimlər insan cəmiyyəti yarandığı gündən bir qədər sonra dilin yaranması, yəni üsniyyətlə bağlı olaraq meydana gəlmişdir. Bəşəriyyətin yaranması və inkişafı ilə əlaqədar olaraq antroponimsiz keçinmək mümkün olmamışdır. Şifahi və yazılı mənbələrimizdə mövcud olan xüsusi adlar həmin fikri təsdiq edir. Şəxs adları insanları bir-birindən ayırmaq, şəxsi bildirmək üçün işlədilən sözlərdir. İnsan adları kollektivin, cəmiyyətin tələbinə görə yaranmışdır. Onların meydana çıxması cəmiyyətin ünsiyyət və ayrı – ayrı

fərdləri bir-birindən fərqləndirmək ehtiyacından doğmuşdur. Adların yaranmasını öyrənmək həmin xalqın tarixini öyrənməyə bərabərdir. Antroponimlərin öyrənilməsi, tədqiq olunması həmişə dilçi alimlərin diqqət mərkəzində olmuş, bu barədə məqalələr, elmi əsərlər yazılmışdır.Türk mənşəli antroponimlərin tədqiqi bir sıra rus alimlərinin, Avropalı türkoloqların diqqət mərkəzində olmuşdur.

**TƏDQİQAT İŞİNİN METODLARI:**

Azərbaycan dilinin antroponimikasının öyrənilməsi, tədqiqi zamanı, əsasən, müqayisəli-qarşılaşdırmalı metoddan, statistik, təsviri və üslubi metodlardan istifadə edilmişdir.

**NƏTİCƏ:**

Azərbaycan dilinin onomastikasının hərtərəfli öyrənilməsində A.Qurbanovun misilsiz xidmətləri olmuşdur. Müəllifin iki cilddə nəşr olunmuş "Azərbaycan onomalogiyasının əsasları" monoqrafiyasında onomastik vahidlər sistemli şəkildə tədqiq edilmişdir. Monoqrafiyanın ikinci cildinin ikinci fəsli "Azərbaycan antroponimləri" adlanır. Burada antroponimik kateqoriyalar və onların təsnifi, antroponimlərin növləri və s. ətraflı şərh edilmişdir.

M.Adilovun A.Paşayevlə birlikdə nəşr etdirdiyi "Azərbaycan onomastikası" kitabının birinci bölməsi antroponimika adlanır. Burada antroponimik kateqoriyalar iki qrupda göstərilir. 1. əsas ad kateqoriyaları; 2. Köməkçi ad kateqoriyaları. Əsas ad kateqoriyasına əsl şəxs adı, ata adı, soyad, köməkçi ad kateqoriyasına təxəllüs, titul, ləqəb, fəxri adlar aid edilir.

Antroponimlərin tədqiqində klassik ədəbiyyat nümunələrinin böyük rolu vardır. Bu sahədə bir çox tədqiqat işləri aparılmışdır. A.Paşayev "Nizami Gəncəvinin poetik antroponimiyası", M.Adilov "Füzuli qəzəllərində xüsusi adların üslubi poetik xüsusiyyətləri", E.Quliyeva "Rəşidəddinin "Oğuznamə" əsərində antroponimlər" və s. kimi tədqiqatlar klassik poeziyanın üslubi məqamlarını açılmaq məqsədi daşıyır.

**Ədəbiyyat**

1. Abdullayeva B. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı: Azərnəşr, 1985.
2. Adilov M. İ. Paşayev A. Təxəllüs, ləqəb, imza terminləri. Terminologiya məsələləri. Bakı: Elm, 1987.
3. Axundov A. Onomastik vahid, onun mahiyyəti və dil sistemində yeri. Azərbaycan onomastikası problemləri. Bakı: APİ, 1988.
4. Axundov A. Ümumi dilçilik. Bakı: Maarif, 1988.
5. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. 2 cilddə. I cild. Bakı: Nurlan, 2004.
6. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. 2 cilddə. I cild. Bakı: Nurlan, 2004.